**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**NƏRMİN MÜBARİZ QIZI KAMİLOVA**

# "MUSİQİ MƏŞĞƏLƏLƏRİNDƏ ŞAGİRDLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ ÜZRƏ İŞİN İMKAN VƏ YOLLARI (ÜMUMTƏHSIL MƏKTƏBLƏRININ MATERIALLARI ƏSASINDA)"

5801.01 – Təlim tərbiyənin nəzəriyyəsi və metodikası
(musiqinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Musiqi və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** pedaqogika üzrə elmlər doktoru, professor
**Jalə Həmid qızı Qədimova**

**Rəsmi opponentlər:** Azərbaycan Respublikasının Əməkdar müəllimi, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, professor
**Oqtay Məmmədağa oğlu Rəcəbov**

pedaqogika üzrə fəlsəfə doktoru
**Aynur Vahid qızı Hüseynova**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin "Pedaqogika" kafedrası.**

Müdafiə _28/04___2017-ci ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqillik əldə etmiş dövlətimiz dünya ölkələrilə sıx əlaqələr yaratmaqla özünün varlığını, sülhsevər siyasətini digər xalqlara, dövlətlərə çatdırmaq istəyir. Dövlətimizin bu ideoloji siyasəti xalqımızın, sülhsevər dövlətimizin bütün dünyada tanınmasına səbəb olmuşdur. Azərbaycan nefti və qazı ilə əlaqədar bir çox dövlətlərlə bağlanmış beynəlxalq əhəmiyyətli kontraktlar həm xalqımızın rifahının yaxşılaşmasına, ölkəmizin zənginləşməsinə, iqtisadiyyatımızın, o cümlədən hərbi gücümüzün artmasına imkan yaratdığı kimi, həm də dövlətimizin dünya dövlətləri arasında imicinin, hörmətinin artmasına gətirib çıxartmışdır. Bütün bunlar hərbi vətənpərvərlik tərbiyəsinin rolunu azaltmırmı? Əlbəttə ki, yox. Çünki torpaqlarımızın 20%-nin rus ordusunun köməkliyi ilə erməni faşistləri tərəfindən tutulması faktı sülhsevər xalqımızı, dövlətimizi məcbur edir ki, öz hərbi gücünü artırsın, böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki pedaqoji işi bir qədər də fəallaşdırsın.

Bakıda baş vermiş 1990-cı il “20 yanvar”faciəsi dinc və əliyalın insanların qırğını, 1992-ci il “Xocalı qırğını”, 1 milyona yaxın qaçqın və köçkünləri olan bir xalq, dövlət heç vaxt sakit qala bilməz. Yəni doğma yurdumuzda baş vermiş bu dəhşətli hadisələr hərbi gücümüzün, böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində işlərin fəallaşmasına və bu vacib problemin bir daha aktuallaşmasına səbəb olmuşdur. Heç də siyasətçilər arasında tez-tez işlənilən “Sülh istəyirsənsə, müharibəyə hazırlaş!” fikiri səbəbsiz deyildir. Tarixən zəngin yeraltı, yer üstü resursları olan ölkələr çox zaman öz hərbi güclərinə diqqət artırmadıqlarından, hərbi vətənpərvərlik tərbiyəsinə lazımi fikir vermədiklərindən digər ölkələrin təcavüzlərinə məruz qalmışlar. Məhz respublikamızın prezidenti cənab İlham Əliyev də həmişə öz çıxışlarında qeyd edir ki, “Azərbaycan güclü dövlətdir, onun güclü ordusu vardır!” yaxud, “Biz işğal altındakı torpaqlarımızı sülh danışıqları vasitəsilə azad etmək istəyirik. Əgər bu alınmasa biz torpaqlarımızı güc yolu ilə azad edəcəyik!”[1]. Ölkə başçısının bu sözləri sübur edir ki, xalqımız sülh sevər xalq olsa da, o, işğal altında olan torpaqları hərbi yolla azad etməyə hazırdır.

Beləliklə, hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki pedaqoji-psixoloji işin səmərəliliyinin artırılması bu gün xalqımızın, dövlətimizin, eyni zamanda ümumtəhsil məktəblərimizin qarşısında duran ən vacib problemlərdən

---

[1] News Milli. Az.qəzeti, 26 iyun, 2011

birinə çevrilir. Belə ki, güclü iqtisadiyyatı olan ölkənin həm də vətəni qorumağı bacaran, onun uğrunda vuruşlarda qalib gələn, fiziki cəhətdən sağlam, savadlı, müasir hərbi texnikalardan, texnologiyalardan baş çıxara bilən, xalqını, vətənini sevən bir ordusu da olmalıdır. Yuxarıda göstərilən keyfiyyətləri isə bağça yaşlarından, sonra isə ümumtəhsil məktəblərimizdə, bütün fənlərin ("Ana dili", "Riyaziyyat", "Fiziki tərbiyə", "Texnologiya", "Xarici dil", "İnformatika", "Təsviri incəsənət", "Musiqi") tədrisi prosesində formalaşdırmaq, sonradan isə inkişaf etdirmək bu gün müəllimlərimiz qarşısında duran ən əsas, ən vacib problemlərdən biridir. Bu problem bu gün eyni zamanda insan tərbiyəsi ilə məşğul olan pedagogika və psixologiya elmləri sahəsində çalışan alimlərin də qarşısında duran və çox təəssüflər olsun ki, tam şəkildə araşdırılmamış, həll olunmamış, elmi tədqiqat problemlərindən biridir.

Böyük söz və sənət xadimləri olmuş Xaqani, Nizami, Nəsimi, Füzuli, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, H.Zərdabi, N.Nərimanov, Ü.Hacıbəyli, C.Cabbarlı, S.Vurğun, B.Vahabzadə və digərləri öz yazılarında, əsərlərində böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi yer ayırmışlar.

Görkəmli Azərbaycan bəstəkarlarından Ə.Bədəlbəyli, Q.Qarayev, T.Quliyev, F.Əmirov, A.Məlikov, S.Ələsgərov, O.Zülfüqarov, O.Rəcəbov və b. orta ümumtəhsil məktəbləri şagirdlərinin musiqi-estetik tərbiyəsi sahəsində çalışmaqla bərabər, eyni zamanda yaratdıqları mahnılarda və digər janrlı əsərlərində hərbi vətənpərvərlik mövusuna toxunmuşlar. Məhz onlar keçən əsrin 60-80-ci illərində çoxlu sayda hərbi vətənpərvərlik mövzusunda müxtəlif janrlarda musiqi nümunələri yaratmışlar. Bu illərdə də Y.B.Əliyevin, N.S.Məlikməmmədovun, S.D.Quliyevin, V.C.Xəlilovun, O.M.Rəcəbov və F.B.Sadıqovun apardıqları tədqiqatlar xüsusilə nəzərə çarpmışdır. O.M.Rəcəbov, F.B.Sadıqov, İ.Məmmədova, J.H.Qədimova, U.M.Miriyeva, N.K.Kazımov və b. öz tədqiqat işlərində Azərbaycan musiqisindən istifadə imkanlarını bu və ya digər formada araşdırmışlar. Lakin bu dissertasiya işlərinin heç birində hərbi vətənpərvərlik tərbiyəsi probleminə toxunulmamışdır.

XX əsrin ikinci yarısında keçmiş Sovetlər İttifaqının pedaqoq alimlərindən tədqiq etdiyimiz problemlə əlaqədar A.A.Aronov, N.M.Konjiyev, V.S.Çudnıy və s. kimi pedaqoq alimlər, o cümlədən pedaqoji elmlər doktoru, professor X.Q.Fətəliyev məhz məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar elmi-tədqiqat işləri üzərində işləmiş və dissertasiyalar yazmışlar. XX əsrin 80-90-cı illərində Y.K.Babanskı, B.S.Qerşunski və s. kimi pedaqoq alimlər tədqiq etdiyimiz problemlərlə əlaqədar bir sıra tədqiqatlar aparsalar da, hərbi vətənpərvərlik tərbiyəsinə tam bir pedaqoji proses kimi yanaşmamışlar.

Bu dövrdə sovet psixologiyasının və fəlsəfəsinin məşhur nümayəndələri olan S.L.Rubinşteyn, A.N.Leontyev, M.S. Kaqan, E.Q.Yudin və digərlərinin fəaliyyət prosesində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar elmi – tədqiqat işləri olsa da, bunların heç birində musiqidən istifadə etməklə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi probleminə toxunulmamışdır. Keçən əsrin 80-ci illərində tanınmış Azərbaycan pedaqoqu, alimi X.Q.Fətəliyevin doktorluq dissertasiyası şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmasına baxmayaraq, o musiqinin böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində istifadə olunması probleminə toxunmamışdır[2]. Respublikamızda müxtəlif elmi-pedaqoji ədəbiyyatlarda hərbi vətənpərvərlik tərbiyəsi prosesində musiqidən istifadə məsələsi də yalnız epizodik xarakter daşıyır və bu sahədə də elmi-tədqiqat münasibəti olan samballı elmi-tədqiqat işləri demək olar ki, yox səviyyəsindədir.

2009-cu ildə Q.T.Məmmədovanın "Azərbaycan muğamları şagirdlərin vətənpərvərlik tərbiyəsi vasitəsi kimi"[3] pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün yazdığı dissertasiyada yalnız muğamlarımız vasitəsilə şagirdlərin vətənpərvərlik tərbiyəsi probleminə toxunulmuş və hərbi vətənpərvərlik tərbiyəsi problemi bu tədqiqatda öz əksini tapmışdır.

Apardığımız tədqiqatlar və araşdırmalar nəticəsində bizə aydın oldu ki, musiqi vasitəsilə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi problemi çox az tədqiq olunduğundan, bu elmi problemi müəyyən dərəcədə aydınlaşdırmaq üçün "Musiqi məşğələlərində şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsi üzrə işin imkan və yolları (ümumtəhsil məktəblərinin materialları əsasında)" adlı dissertasiya üzərində tədqiqat aparaq.

**Tədqiqatın elmi yeniliyi**. Təqdim olunan dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Respublikamızda və post Sovet məkanında ilk dəfə olaraq ümumtəhsil məktəbi şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsində xalq və bəstəkar musiqi nümunələrindən istifadənin imkan və yolları öyrənilmiş və ümumilikdə musiqi mədəniyyətinin formalaşmasına təsiri müəyyənləşdirilmiş;
- Azərbaycanda ilk dəfə olaraq I-IX sinif "Musiqi" fənninin tədrisində hərbi vətənpərvərlik tərbiyəsinin imkanları araşdırılmış;
- Şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin komponentlərinin elmi əsaslandırılmasına cəhd göstərilmiş;

---

[2] Fətəliyev X.Q. "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" Bakı, Maarif, 1987, s.20-25
[3] Məmmədova Q.R. "Azərbaycan muğam vasitəsi kimi" namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2009, s.26

- Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik mövzusunda müxtəlif janrlı musiqi nümunələrindən tədris prosesində istifadə etmək yolları göstərilmiş;

- Hərbi vətənpərvərlik və vətənpərvərlik anlayışları elmi surətdə fərqləndirilmişdir.

**Tədqiqatın məqsədi** – Musiqi məşğələlərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi prosesində Azərbaycan xalq və bəstəkar musiqisinin müxtəlif janrlı və xarakterli musiqi nümunələrinin I-VIII siniflərdə istifadə üçün imkanlarını,məzmun,vasitə və yollarını öyrənmək, bu işin effektliliyinin inkişafını izləmək, musiqi müəllimlərinin fəaliyyətinə kömək edə biləcək elmi-metodik tövsiyyələri hazırlamaq.

**Tədqiqatın fərziyyəsi** – ümumtəhsil məktəblərinin musiqi dərslərində müxtəlif xarakterli Azərbaycan xalq və bəstəkar musiqisindən əyani-illüstrativ, məqsədə, yaş xüsusiyyətlərinə uyğun olaraq istifadə olunarsa, kiçik yaşlarından başlayaraq şagirdlərin maraqlarına uyğun əlverişli nümunələr müəyyənləşdirilərsə, aparılan müntəzəm və sistemli işin nəticəsində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi işinin effektliliyi artar, musiqiyə emosional münasibət yaranar ki, bütün bunların hamısı birlikdə tərbiyə olunanın musiqi mədəniyyətinin formalaşmasına müsbət təsir göstərər.

**Tədqiqatın vəzifələri** – tədqiqatın məqsədi və fərziyyəsinə uyğun olaraq qarşıya aşağıda göstərilən vəzifələrin həlli qoyulmuşdur:

1. Ümumtəhsil məktəbi şagirdlərinin (I-VIII sinif) hərbi vətənpərvərlik tərbiyəsi probleminin nəzəri və təcrübi məsələlərinin pedaqoji-psixoloji və fəlsəfi ədəbiyyatda, musiqi proqram və dərsliklərində qoyuluşunu öyrənmək.
2. I-VIII siniflərin musiqi məşğələlərində hərbi vətənpərvərlik tərbiyəsi üzrə aparılan işin vəziyyətini öyrənərək ümumiləşdirmək.
3. I-VIII sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsi üzrə aparılan işin effektliliyinin vasitə və yollarını, metod və priyomlarını müəyyənləşdirmək.
4. Azərbaycan musiqi nümunələri vasitəsilə I-VIII sinif şagirdlərinin hərbi vətənpərvərik tərbiyəsi üzrə aparılan məşğələlərin, onların ideya-siyasi mədəniyyətinin, ümumilikdə mədəniyyətinin inkişafına təsirini aşkara çıxarmaq.
5. Musiqi müəllimlərinə kömək məqsədilə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi üzrə işin elmi-pedaqoji metodik əsaslarda qurulmasına təsir göstərən vəsaitlər hazırlamaq, təkliflər irəli sürmək.

Tədqiqatın metodoloji əsasını "İdar nəzəriyyəsi", tədqiqatla bağlı milli və bəşəri dəyərlərin vəhdəti, respublikamızda bu istiqamətdə aparılan tədqiqatlar, klassik pedaqoqların, psixoloqların, musiqişünas alimlərin problemlə əlaqədar ideyaları, milli bəstəkarlarımızın əsərləri və xalq musiqimiz təşkil edir.

**Tədqiqatın obyekti** – ümumtəhsil məktəbi şagirdlərinin musiqi məşğələlərində hərbi vətənpərvərlik tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti** – ümumtəhsil məktəbilərinin musiqi məşğələlərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu, vasitə və yollarıdır.

Tədqiqatla əlaqədar aşağıda qeyd olunan **tədqiqat metodlarından** istifadə olunmuşdur:

1. **Nəzəri təhlil.** Problemə uyğun musiqi proqramları, dərsliklər, dissertasiyalar, elmi araşdırmalar, pedaqoq, filosof və psixoloqların, müsiqişünasların əsərləri müqayisəli şəkildə təhlil olunmuş və müəyyən nətciələr çıxarılmışdır.

2. **Ümumtəhsil məktəblərində keçirilən dərslərin, məşğələlərin nəticələrinin öyrənilməsi.** Respublikamızın ümumtəhsil məktəblərində çalışan 50-dən çox musiqi müəllimlərinin, 20 metodistin iş planları, respublika və Bakı şəhər pedaqoji kadrların ixtisarartırma kurslarında aparılan nəzəri və praktik işlərin məzmunu, məruzə və təqdimatların mahiyyəti öyrənilərək təhlil olunmuşdur.

3. **Müsahibə.** Azərbaycan musiqisi vasitəsilə I-VIII sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsi üzrə işin əsas cəhətləri, elmi-pedaqoji nəticələri təhlil etmək məqsədilə müəllimlər, metodistlərlə müsahibələr aparılmış, məktəblilərlə yazılı anket sorğusu keçirilmişdir.

4. **Müşahidə.** Hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar vəziyyəti öyrənmək üçün musiqi dərslərində müəllimlərin və şagirdlərin fəaliyyəti müşahidə olunmuş və tədqiqat işi üçün istiqamətlər müəyyənləşdirilmişdir.

5. **Pedaqoji eksperiment.** Tədqiqat prosesində meydana çıxan mübahisəli anların dəqiqliyini, fərziyyənin doğruluğunu yoxlamaq üçün müəyyənedici, öyrədici və yoxlayıcı olmaqla eksperiment aparılmışdır. Eksperimentlər Bakının 20, 190, 238, 193, 304 saylı məktəblərində, Heydər Əliyev adına Müasir Təhsil Kompleksində, bağça-məktəb litseyində, Avropa-Azərbaycan məktəbində, Qubadakı 2 saylı şəhər orta məktəblərində keçirilmişdir.

6. **Riyazi statistika.** Pedaqoji eksperiment və sınaq dərslərində alınan nəticələr riyazi sxemlərlə ümumiləşdirilmişdir.

7. **Anket və test metodları.** Nəticələri təhlil etmək məqsədilə müəllimlər, metodistlərlə müsahibələr aparılmış, məktəblilərlə yazılı anket sorğusu və test keçirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Aparılmış tədqiqat məktəb və musiqi pedaqogikasında Azərbaycan musiqisindən istifadənin imkanlarını və dərəcəsinin aydınlaşdırılmasına istiqamət verir, bu sahədə yaranmış boşluğun aradan qaldırılmasına səbəb olur.

**Tədqiqatın praktik əhəmiyyəti.** Aparılmış tədqiqat nəticəsində hazırlanmış yeni sistem orta ümumtəhsil məktəblərində çalışan müəlllimlərə məktəblilərin musiqi vasitəsilə hərbi vətənpərvərlik tərbiyəsinin effektinin artmasına kömək göstərir, həm də onların fəaliyyətinə düzgün istiqamət verir.

Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:

1. Ümumtəhsil məktəblərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan musiqisindən istifadə onlarda hərbi vətənpərvərlik keyfiyyətəri yaratmaqla bərabər, eyni zamanda ümumi mədəniyyətlərinin formalaşmasına da öz təsirini göstərir.
2. Hərbi vətənpərvərlik tərbiyəsi prosesində Azərbaycan musiqisindən müxtəlif musiqi janrları ilə tanış olmaları onların musiqi mədəniyyətinin formalaşmasına öz müsbət təsirini göstərir.
3. Hərbi vətənpərvərlik tərbiyəsi prosesində Azərbaycan musiqisindən istifadə nəticəsində şagirdlərin əldə etdikləri bilik, bacarıq və vərdişlər gələcəkdə digər xalqların, dünya musiqi korifeylərinin yaradıcılıqlarının da qavranılmasına səbəb olur.

**İşin aprobasiyası.** Dissertasiyanın əsas məzmunu 7 jurnal məqaləsi, ümumtəhsil məktəblərində təlim-tərbiyə metodlarının təkmilləşməsinə həsr olunmuş respublika elmi-praktik konfransında müəllimlərin, metodistlərin nəzərinə çatdırılmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, 2 fəsil, 5 bölmə, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş bölməsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti,elmi yeniliyi açıqlanır, məqsədi,fərziyyəsi və vəzifələri, metodoloji əsası, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

**I Fəsil**. **“Musiqi vasitəsilə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin pedaoji məsələləri”** adlanır və üç yarımfəsildən ibarətdir.

**1.1. “Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində hərbi vətəpərvərlik tərbiyəsinin mahiyyəti”** adlanır. Bu yarımfəsildə göstərilir ki, ölkəmizdə hərbi vətənpərvərlik tərbiyəsi sisteminin inkişafı Vətənimizin müstəqilliyinin qorunmasından irəli gəlir. Bu sistem, ilk növbədə kompleks xarakter daşıyır, yəni məktəblilərin və ümumiyyətlə insanların vətənpərvərlik şüurunun formalaşdırılması bütün təlim-tərbiyə müəssisələrinin və cəmiyyət institutlarının funksiyası hesab oluna bilər. İkincisi, bu tərbiyə növü insanların bütün ömr dövrünü əhatə edir. Üçüncüsü, bu sistem

şəxsiyyətin tam, dialektik dünyagörüşlü, xalqın və ordunun ayrılmaz birliyinin ən yaxşı ənənələri şəklində formalaşmasına istiqamətlənmişdir.

Hərbi vətənpərvərlik tərbiyəsinin müasir şəraitdə öyrənilməsi üçün ilk növbədə onun mahiyyəti, məqsəd və vəzifələri aydınlaşdırılmalıdır. Əslində hərbi vətənpərvərlik tərbiyəsi sisteminin funksiyasının mahiyyəti, onun tam işi, məzmunu bu günə qədər pedaqoq alimlər tərəfindən tam açıqlanmamışdır. V.S.Çudnıy, N.M.Konjiyev, A.A.Aronovun bu sahədə apardıqları tədqiqatlarda hərbi vətənpərvərlik sisteminin komponentlərinə yenilərinin əlavə edilməsinə, bu problemin tam təbiətinin açılmasına cəhd göstərilməsinə baxmayaraq, bu sistemin konseptual nüvəsi, sistemi yaradan faktorun elmi surətdə açılmasına nail olmamışlar. Akademik A.M.Maxmutovun və V.S.Tyuxinin fikrincə bu müxtəlif sistem anlayışlarına bir "universal" deyil, sistemlərin yanaşması kimi baxmaq lazımdır[4].

Keçən əsrin 80-90-cı illərində akademiklərdən Y.K.Babanski, B.S.Qerşunski, V.İ.Zaqvyazinski, V.S.İlyin, V.S.Şubinski tərəfindən aparılmış tədqiqatlarda məqsədlə əlaqədar müxtəlif yanaşmalar öz əksini tapmışdır. Lakin bunlara baxmayaraq hərbi vətənpərvərlik tərbiyəsi sistemində məqsədin xüsusiyyətləri ilə əlaqədar adı qeyd olunan alimlərin tədqiqatlarında əsaslı açıqlamalara rast gəlinmir.

Məşhur rus pedaqoq-alimi A.V.Yatsenko məqsədə belə açıqlama verir: "Məqsəd – nəticənin ideal təqdim olunmasıdır". Pedaqoq – alim V.Momov isə məqsədi belə açıqlayır: "tərbiyəvi proqramın və onun arzu edilən nəticələrinin alınma yollarının yönəldicisi, müəyyən edicisidir"[5].

Hərbi vətənpərvərlik tərbiyəsi vasitələrinin xarakteristikası haqqında danışdıqda qabaqcıl dünya ölkələrinin psixoloq və filosoflardan S.H.Rubinşteynin, A.N.Leontyevin, M.S.Kaqanın, E.Q.Yudinin, Ə. Əlizadənin və digərlərinin əsərlərini göstərmək olar.

Keçmiş Sovetlər ölkəsində təcrübədə ən çox istifadə olunan hərbi vətənpərvərlik sistemlərini nəzərdən keçirək. Tədqiqatçı - alim V.S.Çudnıy bu sistemin aşağıdakı komponentlərini qeyd edir:

Məktəblilərin Vətəni qorumaqla əlaqədar vacib olan bilik, bacarıq və vərdişlərin elmi əsaslarını öyrənmək; şagirdlərin ilkin hərbi hazırlığı; tətbiqi xarakterli sinifdən xaric işlər zamanı əldə edilən xüsusi bacarıq və vərdişlərə yiyələnmək; məktəbdənkənar hərbi vətənpərvərlik tərbiyəsi;

[4] Афанасьев В.Г. «Общество: систе.иность, познание и управление» Москва, 1981, с.3-5

[5] Момов В. «Человек, мораль, воспитание». Москва, 1975, с.102

hərbi vətənpərvərlik tərbiyəsində ailənin, cəmiyyətin, müxtəlif idman, elmi və hərbi-texniki cəmiyyətlərin məktəbə köməkliyi[6].

Pedaqoq – alim A.Aronovun fikrincə, "təşkilatı baxımından sistemin tərkib hissələri belədir: dərs prosesi; sinifdən kənar işlər; məktəbdən kənar işlər". N.M.Konjiyev hərbi vətənpərvərlik sisteminin strukturunu məzmunun, metodların, istiqamətlərin, təşkili növlərinin, prinsiplərinin vəhdəti şəklində götürməyi məsləhət görür[7].

Keçən əsrin 80-90-cı illərində hərbi vətənpərvərlik tərbiyəsinin kriteriyalarını göstərən tədqiqat işlərində (A.A.Aronov, N.P.Aksenova, N.M.Konjiyev, V.S.Çudnıy, X.Fətəliyev və s.) apardığımız tədqiqatla əlaqədar müəyyən suallara cavablar tapmaq olur. Məsələn, A.A.Aronov hərbi vətənpərvərlik tərbiyəsinin kriteriyalarını belə göstərir: Vətənin qorunması borcu ilə əlaqədar şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi; Vətənin əldə etdiyi nailiyyətləri qorumaq üçün bilavasitə hərbi vətənpərvərlik fəaliyyəti; şagirdlərin şüurlu surətdə hərbi ixtisası seçməsi; hərbi borca şüurlu münasibət[8]. V.S.Çudnıy hərbi vətənpərvərlik tərbiyəsinin kriteriyalarının digər tərbiyə istiqamətlərindən fərqləndiyini göstərir[9]. Fikrimizcə, hesab edirik ki, müxtəlif kriteriya növlərini aşağıdakı qaydalara uyğun fərqləndirmək daha məqsədə uyğun olar: a) bu prosesi digər istiqamətli tərbiyə işlərindən fərqləndirmək; b) onun təşkili və ona rəhbərlik səviyyəsini qiymətləndirmək; c) gələcək Vətən qoruyucusunun şəxsiyyətinin formalaşması haqqında məlumatlara yiyələnmək.

Vətənin qorunmasının kriteriyaları ilə əlaqədar tədqiqatlardan belə bir nəticəyə gəlmək mümkündür ki, hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəri əsasları əgər onun praktikaya tətbiqinin metodoloji əsasları olmazsa onu tam hesab etmək mümkün deyildir. Belə ki, elmi nəticələrin sistemli xarakteri həm də onun praktik tətbiqini tələb edir. Keçmiş Sovetlər dövlətində və Azərbaycanda bu sahədə aparılmış təcrübədə aşağıda göstərilən nəticələrə gəlmək mümkündür:

Tədqiqatların nəticələrinin müxtəlif mərhələlərdə praktikaya tətbiqi; müəllimin, pedaqoji kollektivin, məktəbin və s. Vətəni qorumaqla əlaqədar

---

[6] Чудный В.С. «Военно-патриотическое воспитание учашийся молодежи». Москва, 1985, с.14, 88

[7] Конжиев Н.М. «Научно-педагогические основы построение и функционирование системы средней общеобразовательной школы» Док.дис. Петрозаводск, 1987, с.370-373

[8] Аронов А.А. «Воспитывать патриотов» Москва, 1988, с.2

[9] Чудный В.С. «Военно-патриотическое воспитание учащийся молодежи» Москва, 1985, с.88

işlərinin əsasını şəxsiyyətin formalaşması prosesi təşkil edir; Vətəni qorumaqla əlaqədar müəllimlərin hazırlıq səviyyəsinin artırılması sistemli şəkildə həyata keçirilməlidir.

Vətəni qorumağa hazırlığının formalaşdırılması 1970-90-cı illərdə keçmiş Sovetlər ölkəsinin psixoloq və pedaqoqları (N.P.Aksenova, N.M.Konjiyeva, E.M.Lıbina, A.T.Rostunova, L.A.Kandiboviç, Q.V.Blyaxa, Q.T.Sibakov və digərləri) tərəfindən tədqiq olunmuşdur. Bu tədqiqatlarda göstərilir ki, göstərilən keyfiyyət hərbi vətənpərvərlik tərbiyəsinin məqsədi kimi şəxsiyyətə müxtəlif istiqamətlərdə öz təsirini göstərir və bu təsirlərin nəticələri şəxsiyyət keyfiyyətlərinin sistemi olaraq mürəkkəb sosial-pedaqoji təhsilinin əsasını təşkil edir.

A.N.Vırşikov uzun illər "Vətəni qorumağa hazırlıq"la əlaqədar uzun illər apardığı tədqiqatlarda bu anlayışa uyğun aşağıdakı tələbləri qoyur:

Vətəni qorumağa hazır olmağın mahiyyətini insan şəxsiyyətinin keyfiyyətlərinə tam şəkildə, hərtərəfli, maarifləndirici, əxlaqi və fiziki dözümlülük kimi mürəkkəb kompleks şəklində yanaşma; Vətəni qorumağa hazır olmağın şagirdlər tərəfindən praktikada tətbiq etmək üçün şəxsiyyətin komponentlərinin təyini; Vətəni qorumağa hazır olmağın, şəxsiyyətin keyfiyyətlərini nəzərə almaqla, strukturunun müəyyənləşdirilməsi; hazırlığın xüsusiyyətlərinin müəyyənləşdirilməsi; Vətəni qorumağa hazır olmağın səviyyələrini və kriteriyalarının müəyyənləşdirilməsi; Vətəni qorumağa hazır olmağın səviyyəsini yoxlamaq, diaqnoz vermək üçün metodikaların hazırlanması[10].

Azərbaycan Respublikasında da hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar elmi-tədqiqat işləri aparılmışdır. Bu tədqiqatların əksəriyyəti Sovetlər İttifaqının tərkibində 70 il olmuş Azərbaycan Respublikasında aparıldığı üçün o dövrün ideologiyası, siyasəti, tələbləri baxımından araşdırılmışdır.

Pedaqoji Elmlər doktoru, professor X.Q.Fətəliyevin "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" adlanan monoqrafiyasında müəllif hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi, psixoloji və pedaqoji əsaslarını geniş surətdə araşdırmışdır. O, hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarını aşağıdakı kimi göstərir[11].

Hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarının birincisi Vətəni müdafiəyə marksist baxışdır; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsas-

---

[10] Вырщиков А.Н. «Военно-патриотическое воспитание: теория и практика». Москва, Педагогика, 1990, с.29

[11] Fətəliyev X.Q. "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" "İbtidai məktəb və məktəbəqədər tərbiyə" Bakı, 1988, N 4, s.24

larının ikincisi SSRİ xalqlarının sarsılmaz dostluğudur; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarının üçüncüsü sovet vətənpərvərliyi ilə sosialist beynəlmiləlçiliyinin vəhdətidir; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarının dördüncüsü öz suverenliyi uğrunda imperializmə qarşı mübarizə aparan ölkələrin xalqları ilə beynəlmiləl əlaqəmizdir.

Müstəqil Azərbaycan Respublikasının tələbləri baxımından hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarını aşağıdakı kimi göstərmək mümkündür.

Hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarından birincisi Vətəni müdafiəyə milli baxışdır; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarından ikincisi respublikamız daxilində yaşayan xalqların dostluğudur; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarından üçüncüsü milli vətənpərvərlik və dünya xalqları arasında dostluqdur; hərbi vətənpərvərlik tərbiyəsinin fəlsəfi əsaslarından dördüncüsü öz suverenliyi uğrunda mübarizə aparan dünya ölkələri xalqları ilə dostluq əlaqələrimizdir.

X.Q.Fətəliyev hərbi vətənpərvərlik tərbiyəsinin psixoloji əsaslarını aşağıdakı kimi təsnif edir:

Şəxsiyyətin formalaşmasının psixoloji mexanizmi; hərbi vətənpərvərlik tərbiyəsində idrak prosesinin, emosional – iradi sahəsinin və psixi xassələrin birliyi; üçüncü sosial – psixoloji komponentlərdir (kollektivçilik, qarşılıqlı kömək, yoldaşlıq,dostluq və s.); şagirdlərin vətənpərvərlik hissinə yiyələnməsidir; vətənpərvərlik borcunun dərk edilməsidir; şagirdlərin vətənpərvərlik fəaliyyətinə cəlb edilməsidir.

X.Fətəliyev hərbi vətənpərvərlik tərbiyəsinin pedaqoji əsaslarını belə göstərir:[12]

Kollektiv; müəllim – tərbiyəçinin şəxsi nümunəsi və nüfuzu; müəllim – şagird münasibətlərindəki qarşılıqlı inam.

Əlbəttə ki, hansı ideologiyaya yürüdülən ölkələrdən asılı olmayaraq X.Q.Fətəliyevin göstərdiyi mövzu ilə əlaqədar psixoloji və pedaqoji əsaslardan bu gün də ümumtəhsil məktəblərimizdə istifadə etmək mümkündür. Professor öz monoqrafiyasında əvvəllər göstərdiyi fəlsəfi, psixoloji və pedaqoji əsaslara istinad edərək hərbi vətənpərvərlik tərbiyəsinin prinsiplərini də belə göstərir:[13]

Hərbi vətənpərvərlik tərbiyəsinə partiyalı və sinfi münasibət prinsipi; vətənpərvərlik üzrə tarixi təcrübələrə istinad etmək prinsipi; hərbi tərbiyə

[12] Fətəliyev X.Q. "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" "İbtidai məktəb və məktəbəqədər tərbiyə" Bakı, 1988, N 4, s.30-32

[13] Yenə orada, s.35-36

prinsipi; ardıcıllıq və fasiləsizlik prinsipi; konkretlik prinsipi; məqsədyönlülük prinsipi.

Eyni zamanda suveren respublikamız çoxpartiyalı olduğundan, həm də ölkəmizdə istismar edən və istismar olunan siniflərin olmadığından yuxarıda qeyd olunan prinsiplərin birincisinin müasir dövr üçün ideologiyamıza uyğun gəlmədiyini də qeyd etmək lazımdır. Belə olduqda müasir Azərbaycanımızda mövcud olaraq X.Fətəliyevin göstərdiyi prinsipləri aşağıdakı qaydada göstərmək olar:

Millilik və ümumbəşəriliyin vəhdəti prinsipi; hərbi vətənpərvərlik üzrə tarixi təcrübələrə istinad etmək prinsipi; hərbi-tərbiyə prinsipi; ardıcıllıq və fasiləsizlik prinsipi; konkretlilik prinsipi; məqsədyönlülük prinsipi; hərbi vətənpərvərliyə elmi yanaşma prinsipi.

Göstərilən prinsiplərə uyğun olaraq respublikamızda hərbi vətənpərvərlik tərbiyəsinin məqsədlərini belə göstərmək olar:

Ölkəmizin böyüməkdə olan nəsli millilik və müstəqillik dünyagörüşü ruhunda tərbiyə etmək; gənc nəsli vətənpərvər və xalqlar arasında dostluq ruhunda tərbiyə etmək; milli - əxlaqi keyfiyyətlərə yiyələndirmək; dünyəvi elmlərə yiyələnmək; qazandığı bilikləri hərbi texnikada tətbiq etmək; fiziki sağlamlığa malik olmaq.

Yuxarıda göstərilənlərdən irəli gələrək hərbi vətənpərvərlik tərbiyəsi qarşısında qoyulan vəzifələr aşağıdakılardan ibarətdir:

Məktəblilərimizdə Vətənimizin, xalqımızın son 20 ildən çox müddətdə qazandığı nailiyyətlərə iftixar hissi aşılamaq; xalqımızın, milli Silahlı Qüvvələrimizin döyüş və əmək ənənələrini daha da inkişaf etdirmək; milli-vətənpərvərliyi və ümumbəşəriliyi vəhdətdə inkişaf etdirmək; milli-müstəqillik ideyalarına sədaqət və xarici qəsbkarlara qarşı barışmazlıq aşılamaq; müstəqil Vətənimizin qorunması üçün məsuliyyət hissi tərbiyə etmək; ölkəmizi xarici qəsbkarlardan qorumaq üçün böyüməkdə olan gənc nəsli hərbi bilik, bacarıq və vərdişlərlə silahlandırmaq; düşmən tapdağı altında olan torpaqları azad etmək üçün ordu sıralarında qulluq etməyə həmişə hazır olmaq.

Göstərdiyimiz bu vəzifələrin hamısı bir-biri ilə bağlı və əlaqəlidir. Məhz ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik tərbiyəsinin qeyd olunan vəzifələrinin məzmunu şagirdlərə məhz fəaliyyət prosesində əyani vasitələrdən istifadə etməklə aşılanmalıdır.

2009-cu ildə Bakı şəhərində "Şirvan nəşr" tərəfindən pedaqogika üzrə fəlsəfə doktoru F.Hidayətovanın "Musiqi və Vətəndaşlıq tərbiyəsi" adlı monoqrafiyası çap olunur. Monoqrafiyada "İbtidai siniflərdə musiqi vasitəsilə hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu və imkanları" adlanan

bölmədə müəllif belə yazır: "Hərbi vətənpərvərlik tərbiyəsi sisteminin inkişafı müstəqillik əldə etmiş ölkəmizin, onun dövlətinin qorunmasının tarixi zərurətindən irəli gəlir. Bu sistem, əvvəla kompleks xarakter daşıyır, yəni insanların vətənpərvərlik hislərinin formalaşdırılması ölkəmizdə olan bütün təhsil müəssisələrinin əsas vəzifəsidir. İkincisi, bu tərbiyə sistemi daima hərəkətdə və inkişafda olmalıdır, belə ki, ölkəmizin hətta bir qarış torpağı da xalqımızın mənəvi sərvətidir. Üçüncüsü, bu sistem insan şəxsiyyətinin tam şəkildə formalaşmasına istiqamətləndiyi üçün, xalqın və ordunun vahidliyinin ən yaxşı ənənələrinə əsaslanıb."[14]

Monoqrafiya müəllifi hərbi vətənpərvərliyi siyasi hisslərə aid edərək belə yazır: "Hərbi vətənpərvərlik siyasi hislərə aid olduğundan, onun tərkib hissələrini araşdırmağa çalışaq. Belə ki, hərbi vətənpərvər insan mərdlik, zirəklik, sağlamlıq, sınaqdan sadiq çıxmaq, cəsarətlilik,savadlılıq kimi keyfiyyətlərə malik olmalıdır."[15]

Bir sıra pedaqoq – alimlər, o cümlədən professor Ə.Həşimov özünün "Azərbaycan xalq pedaqogikası" adlı kitabçasında hərbi vətənpərvərlik keyfiyyətini də mərdliyə aid edir. Lakin bizcə mərdlik keyfiyyəti də hərbi vətənpərvərliyin tərkib hissəsi kimi olmalıdır[16].

**1.2. "Problemin "Musiqi" proqram-dərsliklərində və elmi-metodiki ədəbiyyatda qoyuluşu"** adlanır. Dissertasiya müəllifi bu yarımfəsildə təhsil sistemində proqramların rolunun çox əhəmiyyətli olduğunu qeyd edir. XX əsrin 20-ci illərindən sonra respublikamızda yaradılan tədris müəssisələrinin tələblərinə uyğun olaraq proqram və dərsliklərlə əlaqədar elmi-tədqiqat işləri sahəsində ilkin addımlar atılmağa başlayır.

İlk musiqi proqramı 1942-ci ildə Bakı şəhərində "Azərnəşr"in Tədris – pedaqoji şöbəsinin "İbtidai məktəb proqramları" adlanan vəsaitinin daxilində çap olunur. Artıq keçən əsrin 50-ci illərində pedaqoji proseslərə elmi yanaşmalar tələbi irəli sürülür və 1951-ci ildə A.P.E.T.İ.-nin elmi işçisi bəstəkar – tarzən Adil Gəray musiqi proqramı yaradır.Bu proqram ibtidai siniflər üçün nəzərdə tutulmuşdu və hərbi vətənpərvərlik mövzusunda musiqi nümunələri araşdırılmışdır. 1962-ci ildə metodist – alim N.Məlikməmmədov tərəfindən yaradılmış "Musiqi" proqramı 1970-ci ilədək bir neçə dəfə nəşr olunmuşdur.

---

[14] Hidayətova F.Ş. "Musiqi və vətəndaşlıq tərbiyəsi" Bakı, Şirvan nəşr, 2009, s.89
[15] Yenə orada, s.89
[16] Həşimov Ə.Ş. "Azərbaycan xalq pedaqogikasından" Kirovabad, 1967, s.46

1972-ci il "Musiqi" proqramı da 1970-ci il proqramının təkrarı olduğundan proqrama daxil edilmiş musiqi nümunələri arasında heç bir dəyişiklik edilməmişdir. Qeyd etmək lazımdır ki, 1970-ci ildən başlayaraq bu fənn artıq "Nəğmə və musiqi" deyil, "Musiqi" adlandırılmağa başlandır. 1970 və 1972-ci il "Musiqi" proqramında hərbi vətənpərvərliklə əlaqədar ibtidai siniflərdə 4 il ərzində cəmi 5 mahnı hərbi vətənpərvərlik mövzusuna həsr olunub və dinlənilmək üçün bu mövzuda cəmi bir musiqi nümunəsinə rast olunur.

1982-ci ildə bəstəkar O.Rəcəbovun və pedaqoji elmlər namizədi V.Xəlilovun tərtib etdikləri və xalq artisti T.Quliyevin elmi məsləhətçisi olduğu "Musiqi" (I-III siniflər) proqramları "Maarif" nəşriyyatı tərəfindən çap olunur. 1985-ci ildə "Maarif" nəşriyyatı tərəfindən I-VII siniflər üçün "Musiqi"proqramı,1988-ci ildə "Maarif" nəşriyyatı tərəfindən "Ümumtəhsil məktəblərinin I-IV sinifləri" üçün "Proqramlar" çap olunur. Bu vəsaitdə ibtidai siniflərdə tədris olunan bütün fənlərlə əlaqədar fənnlərin, o cümlədən "Musiqi" fənninin proqramları öz əksini tapmışdır. Bu proqramda 1985-ci ildə çap olunmuş "Musiqi" proqramının I-IV siniflər üçün bölməsi heç bir dəyişiklik edilmədən saxlanılmışdır.

2006-cı ildə "Kövsər" nəşriyyatı tərəfindən "Musiqi və nəğmə" proqramı (I-VIII siniflər üçün), 2005-ci ildə O.Rəcəbovun və T.Babayevanın həmmüəllifliyi ilə I sinif, 2006-cı ildə isə II-III və IV siniflər üçün Təhsil Nazirliyinin əmri ilə "Musiqi" dərslikləri nəşr olunur. Bu dərsliklərdə hərbi vətənpərvərliklə əlaqədar musiqi nümunələri öz əksini tapmışdır.Proqram və dərsliklərin tədqiq etdiyimiz mövzu ilə əlaqədar aparılan araşdırmalarının nəticələri göstərir ki, hərbi vətənpərvərlik mövzusunda bəstəkarlarımızın mahnıları və digər janrlarda yaratdıqları musiqi nümunələri mövcud olsa da, onlardan "Musiqi" dərslik və proqramlarında çox az istifadə olunmuşdur. Məhz bu baxımdan ümumtəhsil məktəblərimizdə musiqi dərslərində hərbi vətənpərvərlik tərbiyəsinin səviyyəsi də arzu olunan səviyyədə deyildir. Halbuki, musiqi vasitəsilə ümumtəhsil məktəblərinin şagirdlərində müxtəlif keyfiyyətlərlə bərabər, eyni zamanda hərbi vətənpərvərliklə əlaqədar bilik, bacarıq və vərdişlər aşılamaq mümkündür.

Görkəmli Azərbaycan pedaqoqu və musiqişünası, pedaqoji elmlər namizədi, 1960-cı illərdə ümumtəhsil məktəblərinin "Musiqi" fənni üçün proqram və dərsliklərin müəllifi N.Məlikməmmədovun 1969-cu ildə çap etdirdiyi "Ümumtəhsil məktəblərində musiqi tədrisinin metodikası" adlı metodik vəsaitində musiqinin həm də hərbi vətənpərvərlik tərbiyəsi prosesində əhəmiyyətini göstərir. 1970-ci ildə Ağdam 1 nömrəli orta məktəbinin mü-

əllimi S.Zeynalov "Şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi" adlı metodik vəsaitini "Maarif" nəşriyyatında çap etdirir.

1987-ci ildə Bakıdakı "Maarif" nəşriyyatı professor X.Fətəliyevin "Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi" adlı kitabını nəşr etdirir. Qeyd etmək lazımdır ki, sonrakı illərdə o, məhz bu mövzuda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bu kitab Azərbaycanda yetişməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmuşdur. Kitabda müəllif hərbi vətənpərvərlik tərbiyəsinin mahiyyətini, onun təşkilinin fəlsəfəsi, pedaqoji, həm də psixoloji əsaslarını aydınlaşdırır.

1994-cü ildə U.Miriyeva Bakı şəhərindəki Azərbaycan Dövlət Pedaqoji Universitetində "Şagirdlərin mənəvi tərbiyəsində Azərbaycan bəstəkarlarının əsərlərindən istifadənin imkanları" adlı namizədlik dissertasiyasını müdafiə edir. Hərbi vətənpərvərlik tərbiyəsi mənəvi tərbiyənin bir qolu olduğu üçün dissertant problemlə əlaqədar "Musiqi" fənninin tədrisi prosesində bəstəkarlarımızın Böyük Vətən müharibəsində həlak olmuş Azərbaycanlılara həsr olunmuş musiqi nümunələrindən, o cümlədən mahnılardan da istifadə etməyi məsləhət görür.

1995-ci ildə Bakıdakı "Maarif" nəşriyyatı tərəfindən O.M.Rəcəbov və U.M.Miriyevanın "Musiqi və mənəvi tərbiyə" adlı vəsaitinin "Azərbaycan bəstəkarlarının müharibəyə həsr olunmuş əsərlərinin şagirdlərin vətənpərvərlik hislərinə təsiri" adlı yarımfəslində müəlliflər Böyük Vətən müharibəsi və ondan sonrakı illərdə respublikamızda yaradılmış hərbi vətənpərvərlik mövzusunda olan əsərlərlə əlaqədar qısa ekskurs edirlər.[17]

2009-cu ildə Bakının "Şirvannəşr" nəşriyyatında pedaqogika üzrə fəlsəfə doktoru F.Hidayətovanın "Musiqi və vətəndaşlıq tərbiyəsi" adlı monoqrafiyasının "İbtidai siniflərdə musiqi vasitəsilə hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu və imkanları" adlanan yarımfəslində müəllif hərbi vətənpərvərlik tərbiyəsinin tərkib hissələrini araşdırır[18]. Bir sıra pedaqoq-alimlər, o cümlədən professor Ə.Həşimov yuxarıda sadaladığımız keyfiyyətlərin hamsını mərdlik keyfiyyətlərinə aid etmişdir[19]. Doğurdan da hərbi vətənpərvər insan Vətən uğrunda mübarizə etməyə qadir olduğu kimi, həm də mərd olmalıdır.

Bu yarımfəsildə monoqrafiyanın müəllifi aşağıdakı nəticələrə gəlir:

---

[17] Miriyev V. "Şagirdlərin mənəvi tərbiyəsində Azərbaycan bəstəkarlarının əsərlərindən istifadənin imkanları" Dissertasiya, Bakı, 1994, s.80-81

[18] Hidayətova F.Ş. "Musiqi və vətəndaşlıq tərbiyəsi" , s.89

[19] Həşimov Ə.Ş. "Azərbaycan xalq pedaqogikasından", s.46

Məktəblilərin hərbi vətənpərvərlik hisslərinin musiqi vasitəsilə tərbiyəsi sistemsiz aparılır; "Musiqi" dərsliklərində məktəblilərin yaş xüsusiyyətlərinə, onların xorla oxumaq imkanlarına uyğun olmayan mahnılar daxil edilmədiyindən, müəllimlər onlardan hərbi vətənpərvərlik hisslərinin tərbiyəsində istifadə edə bilmirlər; "Musiqi" dərsliklərinə hərbi vətənpərvərlik mövzusuna aid mahnıların və digər janrlı musiqi əsərlərinin elektron səslənməsi olmadığından müəllim problemlə əlaqədar vəzifəsini həyata keçirə bilmir; tədqiq olunan problemlə əlaqədar nəşr olunmuş metodik vəsaitlərin, məqalələrin azlığı müəllimin bu problemin həllinə elmi yanaşmasına maneçilik göstərir.

Beləliklə, yuxarıda şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmuş elmi tədqiqat, monoqrafiyalar, məqalələrlə əlaqədar belə nəticələrə gəlmək mümkündür:

Şagirdlərdə hərbi vətənpərvərlik keyfiyyətlərinin musiqi vasitəsilə formalaşdırılmasına həsr olunmuş tədqiqat işləri çox azdır; araşdırdığımız elmi-tədqiqat işlərində, monoqrafiya və məqalələrdə vətənpərvərlik anlayışını əksər halda hərbi vətənpərvərlik anlayışı ilə eyniləşdirirlər ki, bu da düzgün deyildir; hərbi vətənpərvərlik tərbiyəsindən danışarkən məqalə müəllifləri əsasən uşaq mahnılarından istifadəni nəzərdə tuturlar, lakin bəstəkarlarımızın digər musiqi janrlarında yazdıqları əsərlər yaddan çıxır; yazılmış elmi məqalələrdə çox zaman hərbi vətənpərvərlik tərbiyəsi mənəvi tərbiyənin tərkib hissəsi kimi təqdim olunur. Halbuki, respublikamızın müharibə şəraitində olması, 20% torpaqlarımızın itirilməsi tələb edir ki, hərbi vətənpərvərlik tərbiyəsi ayrıca bir pedaqoji anlayış kimi tədqiq olunsun.

**1.3. "Azərbaycanda XX əsr – XXI əsrin əvvəllərində hərbi vətənpərvərlik mövzusunda yaradılmış musiqi əsərlərinin tarixindən"** adlanır. Qədim Azərbaycan öz yerləşdiyi mövqeyinə, zəngin təbii sərvətlərinə, münbit torpaqlarına görə bütün dövrlərdə xarici ölkə qəsbkarlarının təzyiqinə məruz qalmış və xalqımız bu təzyiqlərə qarşı daima mübarizə etmək məcburiyyətində olmuşdur. Xalqın qəhrəmanlıq mübarizəsi həmişə onun yaratdığı dastanlarda və digər bədii yaradıcılığında öz əksini tapmışdır və bu gün də həm xalq musiqisi və bəstəkar yaradıcılığında parlaq şəkildə özünü təcəssüm edir. Azərbaycan xalq musiqisi, istərsə də bəstəkar musiqisi təkcə onu əhatə edən digər xalqlar, həm də inkişaf etmiş dövlətlərin xalqları arasında gözəl qarşılanır və çətinlik olmadan başa düşülür. Hələ qədim Dədə Qorqud dövründə torpaqlarımızın qorunması tələb olunurdu. Azərbaycan xalqı yarandığı dövrdən bu günə kimi heç bir xalqın torpaqlarına göz dikməmiş və yalnız zəruri hallarda öz torpaqlarını qorumaq üçün onun

müdafiəsinə qalxmışdır, həm də əksər hallarda buna nail olmuşdur. Bu mübarizə onun musiqili-dastanları olan “Koroğlu”da, “Babək”də və digər xalq eposlarında, xalq və aşıq musiqisində öz əksini tapmışdır.

Xalqımızın yaratdığı “Piyada Koroğlu” (nota salan T.Quliyev), “Qaçaq Nəbi” (nota salan S.Rüstəmov) və s. kimi mahnılar da məhz qəhrəmanlıq mövzusunda olan musiqi nümunələridir. Yaxud hərbi musiqi hesab olunan “Cəngi”, “Qaytağı” xalq rəqsləri də məhz xalqımız tərəfindən xarici işğalçılara qarşı mübarizəyə qalxmaq üçün yaradılmışdır.

Klassik Azərbaycan muğamı olan “Rast” Ü.Hacıbəylinin təabirincə desək “Qəhrəmanlıq xarakterinə malikdir”. Yaxud, “Çahargah” muğamının “Mənsuriyyə” şöbəsi xaraktercə xalqı ayağa qaldıraraq mübarizəyə çağıran bir musiqi nümunəsidir.

XX əsrin 20-ci illərində Ü.Hacıbəyov, M.Maqomayev və A.Zeynallının yaradıcılığında maraqlı mahnı nümunələrinə rast olunur ki, onların arasında həm də hərbi vətənpərvərlik mövzusunda da əsərlərə rast gəlirik. M.Maqomayevin Azərbaycanda, eləcə də bütün şərq aləmində ilk opera yaradan dahi Ü.Hacıbəylinin (“Leyli və Məcnun” 1908-ci il) yaradıcılığında “Koroğlu” operasını qəhrəmanlıq operası adlandırmaq olar.

II dünya müharibəsi illərində Ü.Hacıbəylinin hərbi vətənpərvərlik mövzusunda yazdığı “Şəfqət bacısı”, “Zəfər dastanı”, “Cəbhəyə”, “Ana nəsihəti”, “Yaxşı yol”, “Döyüşçülər marşı”, “Vətən ordusu” kimi mahnıları, 1945-ci ildə “Çağırış”mahnısı, “Sazda çalan qızların mahnısı”, “Gəncin Vətən haqqında mahnısı” nümunələri də məhz hərbi vətənpərvərlik mövzusundadır. Ağır müharibə illərində dahi bəstəkarımız Ü.Hacıbəylinin rəhbərliyi altında gənc bəstəkarlar S.Rüstəmovun “Cəbhəyə”,”İntizar”, “İrəli”, C.Cahangirovun “416-cı diviziya”, “Partizan”,Q.Neymətovun “Döyüşçü andı”,T.Quliyevin “Vətən mahnısı”, “Bir addım da”, S.Hacıbəyovun “Gümrahlıq”, “Kamal”, Ş.Axundovanın “Qələbə marşı”,O.Nikolskayanın “Qisas alacağıq”, “Qələbə bizimdir”, S.Ələsgərovun “Gözlə məni”, “Gözləyirəm sevgilim”əsərləri tez-tez hərbi hissələrdə, qospitallarda, cəbhə bölgələrində, səngərlərdə, həm də məktəblərdə ifa olunurdu.

Böyük Vətən müharibəsindən sonra Azərbaycanda simfonik musiqi bəstəkarlarımızın yaradıcılığında geniş mənada öz əksini tapmağa başlayır. Belə əsərlərdən Q.Qarayevin 1946-cı ildə yazdığı II simfoniyası, C.Hacıyevin “Azadlıq dastanı” oratoriyası, C.Cahangirovun “Dostluq mahnısı” süitası, “Arazın o tayında” simfonik poeması,1946-cı ildə bəstəkar S.Hacıbəyovun yazdığı II simfoniyası da Böyük Vətən müharibəsinə həsr olunmuşdur,1951-ci ildə bəstəkar C.Hacıyev “Sülh uğrunda” simfonik

poeması, 1952-ci ildə bəstəkar Ə.Abbasov "Gələcək gün" adlı simfonik poemasını, Yer üzündə sülhün bərqərar olmasına həsr olunmuş C.Hacıyevin V simfoniyası 1975-ci ildə yaradılmış,1976-cı ildə yazılmış bəstəkar Ə.Abbasovun "Kantata"sı, N.Əliverdibəyovun 4 hissəli "Kantata"sı, "Şur", "Şahnaz", "Dilkəş" muğam improvizasiyaları yaradılır.

Keçən XX əsrin 80-90-cı illərində Azərbaycan bəstəkarlarının ciddi musiqi janrları ilə əlaqədar hərbi vətənpərvərlik mövzuda əsərlərin yaradılması sahəsində bir durğunluq yaranır.Digər Sovet respublikaları kimi Azərbaycanda müstəqillik uğrunda mübarizə əhvali-ruhiyyəsi yaranmışdı. Erməni faşistləri rus ordusunun köməkliyi ilə Azərbaycanın 20% torpaqlarını zəbt etdilər, minlərlə həmyerlilərimizi məhv etdilər. Belə bir gərgin dövrdə Azərbaycan bəstəkarı V.Adıgözəlov özünün "Qarabağ" (mətni şair T.Elçinindir) adlı oratoriyasını, "Çanaqqala" oratoriyası yaradır. 20 yanvar 1990-cı ildə baş verən qırğınlar bütün Azərbaycan xalqının şüurunda böyük dəyişikliklər yaratdı. Azərbaycan Respublikasının Xalq artisti A.Rzayevin bu hadisəyə həsr olunmuş I simfoniyası, şair B.Vahabzadənin "Şəhidlər" poeması yaranır və bəstəkar E.Sabitoğlu bu poemadan istifadə edərək "Şəhidlər" adlı mahnı-monoloqunu yaranır.

1993-cü ildə Ulu Öndər H.Əliyevin Bakıya qayıtması, sonradan Azərbaycan Respublikasının Prezidenti seçilməsi bəstəkarlarımızın yaradıcılığında yaranmış durğunluğun tədricən aradan qalxmasına səbəb olur.

2000-ci ildən 2014-cü ilə qədər olan dövrdə, yəni XXI əsrdə istər böyük nəsil, istərsə də gənc nəsil Azərbaycan bəstəkarları müxtəlif janrlarda hərbi vətənpərvərlik mövzusunda əsərlər yaratmışlar ki, bunların da əsas mövzusu Qarabağ müharibəsinə, 20 yanvar hadisələrinə, Xocalı qırğınlarına həsr olunmuşdular. 2009-cu ildə bəstəkar M.Babayev 5 hissəli solistlər, xor və simfonik orkestr üçün yazılmış "Bu dünya" oratoriyasını (söz: İ.Dadaşovundur) yazır.

2003-cü ildə Gəncə şəhərində yaşayan bəstəkar M.Cəfərov qarışıq xor və piano üçün "Şəhidlər" poeması,2010-cu ildə B.Vüsalın sözlərinə yazdığı "Vətən dedim" qarışıq xor və piano üçün "Kantata" əsəri, A.Dadaşovun "Şuşam" pyesi, Naxçıvan şəhərində yaşayan bəstəkar K.Əhmədovun hərbi vətənpərvərlik mövzusunda yazdığı "Azərbaycan Bayrağı" odası, 2012-ci ildə "Cəngi" əsəri səsləndirilir. Əməkdar İncəsənət Xadimi Tahir Əkbərin 2010-cu ildə yazdığı "Azərbaycan" – solistlər, saz, tar, kaman və orkestr üçün Poema – dastan, 2011-ci ildə A.Qurbaninin sözlərinə yaratdığı "Hər birimiz Mübarizik, Fəridik" qəhrəmanlıq Balladası məhz qeyd olunan mövzuya aiddir.Bəstəkar, Əməkdar İncəsənət xadimi Ə.Əliyevin simfonik orkestr və xor üçün yazdığı "Ata yurdum Azərbaycan" (söz: İ.Dadaşovun)

2005-ci ildə, "Vətən uğrunda" 2006-cı ildə, "Qarabağ memorialı" 2007-ci ildə səslənən əsərləri məhz hərbi vətənpərvərlik mövzusuna həsr olunmuşdur. Bəstəkarın 2010-cu ildə səslənən "Şuşanın dağları başı dumanlı", 2011-ci ildə səslənən "Şuşanın sıldırım dərələri xatırlanarkən" əsərləri simfonik orkestr üçün nəzərdə tutulmuşdur. Hər iki əsər "Qəbələ" şəhərində keçirilən II və III Beynəlxalq Musiqi Festivalında səsləndirilmişdir.

Əməkdar İncəsənət xadimi, bəstəkar S.Fərəcovun 2012-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının IX Qurultayında səsləndirilmiş "Koroğlu əfsanəsi" simfonik əsərini də məhz hərbi vətənpərvərlik əsərləri sırasına aid etmək mümkündür.

İstedadlı bəstəkar R.Həsənova öz yaradıcılığında müxtəlif janrlara müraciət edərək gözəl musiqi nümunələri yaratmışdır. Onun piano üçün 2011-ci ildə yazdığı "Beş qəhrəmani marş" silsiləsi isə məhz hərbi vətənpərvərlik mövzusunda yazılmış əsər hesab etmək olar.

Azərbaycan Respublikasının xalq artisti S.İbrahimova öz yaradıcılığında müxtəlif janrlara və mövzulara müraciət etmişdir. Hərbi vətənpərvərlik mövzusu da bəstəkarı həmişə maraqlandırmış və onun 2005-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında səsləndirdiyi səs, tar və simli orkestr üçün "Oda" əsəri məhz bu mövzuya aiddir.

Azərbaycan Respublikasının xalq artisti, bəstəkar Y.İmanovun hərbi nəfəs alətləri orkestri üçün yazdığı "Milli Qvardiya marşı" (2002), simfonik orkestr üçün "Təntənəli marş" (2008), bariton və simfonik orkestr üçün "Geri qaytar" (2007), hərbi nəfəs alətləri orketri üçün "Qurtuluş marşı" (2008) əsərləri sırf hərbi vətənpərvərlik mövzusunda yazılmış musiqi nümunələridir.

Əməkdar artist, bəstəkar – müğənni E.Qasımova əsasən mahnı janrında işləsə də, eyni zamanda ciddi musiqi janrlarına da müraciət edir. Belə ki, onun 2009-cu ildə Azərbaycan Dövlət Filarmoniyasında Q.Paşayevanın sözlərinə səslədirdiyi "Azərbaycan" Odası əsəri də məhz hərbi vətənpərvərlik mövzusuna aid edilə bilər.

Bəstəkar, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi N.Quliyev "Şəhidlər" (2008) operasını yazır. Bu opera tamaşaya qoyulmasa da onun ayrı-ayrı hissələri müxtəlif konsertlərdə ifa olunur. Bu əsər 1990-cı il 20 yanvar hadisələrinə həsr olunub.

Əsasən mahnı janrında yazıb-yaradan Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar N.Mirməmmədli 2012-ci ildə hərbi vətənpərvərlik mövzusunda xor üçün "Çağırış" əsərini yazmışdır.

Bəstəkar N.Nağıyeva 2006-cı ildə Milli Qəhrəman Ç.Mustafayevə həsr etdiyi "Cəsurluğun simfoniyası" əsərini 2007-ci ildə Azərbaycan Döv-

lət Televiziya və Radio şirkətində səsləndirir.

Bəstəkar O.Rəcəbovun yaradıcılığına nəzər salsaq görərik ki, 2000-2004-cü illər ərzində hərbi vətənpərvərlik mövzusunda “Çingiz” simfoniya-Rekviyem (2011), “Heydər oratoriyası” (2010), 6 saylı simfoniya (2011) əsərlərini yazmışdır. Bu əsərlər 2011-ci ilin 29 aprel tarixində bəstəkarın 70 illik yubileyi ilə əlaqədar M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniysında səsləndirilmişdir. Bu əsərlərin ifasında xor kollektivi, solistlər və böyük simfonik orkestr iştirak etmişdir.

Bəstəkar O.Zülfüqarovun 2008-ci ildə səsləndirdiyi “İntizar” (4 hissəli) simfoniyası da hərbi vətənpərvərlik mövzusunda yazılmış monumental əsərdir.

Yuxarıdakı siyahıdan görünür ki, Azərbaycan bəstəkarları içərisində mahnı janrında (o cümlədən məktəbli-uşaq mahnıları) hərbi vətənpərvərlik mövzusunda ən məhsuldar olmuş bəstəkarlardan Ü.Hacıbəylini, O.Rəcəbovu, R.Şəfəqi göstərmək olar. Digər bəstəkarlarımız hərbi vətənpərvərlik mövzusunda 1-2 mahnı yazmış, yaxud bu mövzuya heç müraciət etməmişlər. Halbuki hərbi vətənpərvərlik mahnıları bu günki siyasi gərginlik dövründə xüsusilə lazımdır. Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar:

1. Azərbaycan bəstəkarlarının yaradıcılığında hərbi vətənpərvərlik mövzusunda kifayət qədər ciddi janrlarda yazılmış əsərlər mövcud olsa da, onlardan ümumtəhsil məktəblərinin “Musiqi” fənninin tədrisində musiqi dinləmə mərhələsi üçün kifayət qədər istifadə olunmur.
2. Azərbaycan bəstəkarlarının uşaqlara və məktəblilərə həsr etdiyi kifayət qədər mahnılar olsa da, hərbi vətənpərvərlik mövzusunda olan mahnıların sayı hələki məktəblərimizin tələbini ödəmir.
3. Yuxarıda göstərilmiş Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik mövzusunda olan mahnıları arasında Qarabağ müharibəsinə həsr olunmuş mahnılar azlıq təşkil edir. Ona görə də Təhsil, Mədəniyyət və Turizm Nazirliklərinin, Respublikamızda mövcud olan telekanalların bu mövzu ilə əlaqədar yeni mahnıların yaradılması üçün hər il müsabiqələr keçirmələri tövsiyə olunur.

**II Fəsil “Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik mövzusunda əsərlərinin məzmunu,xüsusiyyətləri və onlardan “Musiqi” dərslərində istifadənin imkan və yolları”** adlanır, eksperimentdir və **2 yarımfəsildən** ibarətdir. **2.1. “Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik tərbiyə baxımından əsərlərinin məzmunu və xüsusiyyətləri”**adlanır.

Azərbaycan Respublikasında qəbul edilmiş “Musiqi” kurikulumlarının standartlarının ümumtəhsil məktəblərimizdə tətbiqi ilə əlaqədar I-VIII siniflər üçün yaradılmış yeni dərslik və müəllimə aid edilən metodik vəsaitlərdə dərs

prosesində istifadə etmək üçün müəyyən repertuar öz əksini tapmışdır.

Bu musiqi repertuarı fənnin tədrisi prosesində müxtəlif fəaliyyət növlərində istifadə olunur. Bu mərhələlər aşağıdakılardır: mahnı oxuma, musiqi dinləmə, musiqi savadının verilməsi, musiqili ritmik - hərəkət, improvizasiya, uşaq musiqi alətlərində çalmaq. Qeyd olunan bu musiqi fəaliyyətlərinin hər birində musiqi nümunələrindən istifadə olunur. Ona görə də hansı musiqi fəaliyyəti növündən asılı olmayaraq məktəblilərə təqdim edilən nümunələr onların maraqlarına, yaş xüsusiyyətlərinə uyğun olmalıdır. Digər tərəfdən musiqi nümunələri keyfiyyətli, pedaqoji prinsiplərə uyğun seçilməlidir. Əsas şərtlərdən biri də seçilmiş musiqi nümunələri şagirdləri düşündürməli və tərbiyəvi əhəmiyyətə malik olmalıdırlar.

Şagirdlərin hərbi vətənpərvərlik hisslərinin tərbiyəsində istifadə olunacaq mahnıları və musiqi əsərlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Sülhə həsr olunmuş mahnılar və digər janrlı musiqi nümunələri; orduya həsr olunmuş mahnılar; valideynlərin əsgər oğulları haqqında fikirlərini əks etdirən mahnılar və digər janrlı musiqilər; Azərbaycana, Qarabağa, qəhrəman şəhərlərimizə həsr olunmuş mahnılar və digər janrlı musiqi nümunələri; müharibə qəhrəmanlarına həsr olunmuş mahnılar və digər janrlı musiqi nümunələri; Vətənimizin keçmiş tarixində olmuş qəhrəmanlarla əlaqədar xalq mahnıları və digər janrlı musiqi nümunələri.

Qeyd etmək lazımdır ki, Azərbaycan professional bəstəkarlarımızın yaradıcılığında və xalq musiqimizdə (xalq və aşıq mahnıları) hərbi vətənpərvərlik hissi oyadan kifayət qədər musiqi nümunələri mövcuddur.

Musiqi müəllimləri hərbi vətənpərvərlik mövzusunda yazılmış mahnıların yazılma səbəblərini, onların hansı tarixi hadisələrə həsr olunduğunu şagirdlərə aydınlaşdırmalı və bu musiqi nümunələri ilə əlaqədar əyani vasitələrdən yeri gəldikcə istifadə etməyi də bacarmalıdır.

Məlumdur ki, ümumtəhsil məktəblərində "Musiqi" fənninin tədrisi prosesində əsas fəaliyyət növlərindən mahnı oxumaqdan əlavə musiqi dinləmə mərhələsi də vardır ki, müəllim bu fəaliyyət növünün tətbiqi mərhələsində Azərbaycan və klassik dünya bəstəkarlarının əsərlərini şagirdlər üçün səsləndirir. Aydındır ki, bu əsərlərin müxtəlif tərbiyəvi, o cümlədən hərbi vətənpərvərlik tərbiyəvi əhəmiyyətə malik ola bilər. Ona görə də Azərbaycan bəstəkarlarının digər janrlarda yazdığı əsərlərin də (opera, balet, simfoniya, simfonik poema, proqramlı instrumental və s.) hər birinin məzmunu olduğundan musiqi müəllimi qeyd olunan musiqi nümunələri, bəstəkar, ifaçılar, əsərin adı ilə məzmunu arasında uyğunluq, əgər əsərin bilavasitə adı yoxsa ümumiyyətlə onun xarakteri haqqında qısa və aydın, sadə dildə, yeri

gəldikcə musiqi terminlərindən, musiqi ifadə vasitələrindən, əyani görüntü vasitələrindən istifadə etməklə məlumat verməlidir. Eyni zamanda müəllim elə etməlidir ki, şagirdlər bu əsərləri passiv olaraq deyil, fəal şəkildə dinləsinlər, dinləmə mərhələsi bitdikdən sonra əsər haqqında öz şəxsi fikirlərini söyləsinlər, yeri gəldikcə öz sualları ilə müəllimə müraciət etsinlər.

Bu deyilənlərdən aşağıda göstərilən nəticələrə gəlmək mümkündür:

Şagirdlərdə hərbi vətənpərvərlik keyfiyyətlərinin yaradılması üçün istifadə ediləcək Azərbaycan bəstəkarlarının əsərləri onların yaş xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə uyğun olmalıdır; şagirdlərdə hərbi vətənpərvərlik kimi keyfiyyətlərinin tərbiyə edilməsi üçün müəllim ifa ediləcək, yaxud dinləniləcək nümunələri, onların müəllifləri ilə əlaqədar məlumatlardan istifadə etməsi bu əsərlərin qavranılmasını asanlaşdırır; hərbi vətənpərvərlik mövzusunda olan mahnıları öyrənilməsi, digər janrlarda olan musiqi nümunələrinin dinlənilməsi prosesində müəllim əsərlərin məzmunlarına uyğun əyani vasitələrindən (təsviri, poeziya, kino filmlərdən kadrlardan və s.) istifadə etməklə şagirdlərin musiqiyə olan maraqlarını artırmaq mümkündür.

**2.2. "Musiqi dərslərində şagirdlərdə hərbi vətənpərvərlik keyfiyyətlərin aşılanmasında Azərbaycan musiqisindən istifadə yolları"** adlanır, eksperimentdir. Bu bölmədə dissertant I-VIII siniflərdə hərbi vətənpərvərlik mövzulu mahnıları sistemləşdirir və onların öyrədilməsi yollarını müasir metodlarla göstərir. I-VIII siniflərin "Musiqi" fənninin tədrisində hərbi vətənpərvərlik mövusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yollarını nəzərdən keçirək.

I sinifdə bəstəkar O.Rəcəbovun şair Ə.Ağayevin sözlərinə yazılmış "sərhədçilər marşı" mahnısından hərbi vətənpərvərlik mövzusunda olan bir musiqi nümunəsi kimi istifadə etmiş, II sinifdə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində istifadə etmək üçün Ü.Hacıbəylinin şair M.Seyidzadənin sözlərinə yazdığı "Pilotlar" mahnısı, III sinifdə Ü.Hacıbəylinin M.S.Ordubadinin sözlərinə bəstələdiyi "Əsgər marşı" mahnısını, IV sinifdə şagirdlərdə hərbi vətənpərvərlik hisslərinin yaradılması üçün bəstəkarlarımızdan S.Ələsgərovun şair C.Cavadlının sözlərinə "Ölməz sərkərdə", O.Zülfüqarovun şair C.Cavadlının sözlərinə yazdıqları "Mehdi" mahnılarından, o cümlədən Azərbaycan xalq mahnılarından "Qaçaq Nəbi" kimi musiqi nümunələrindən istifadə etmək məsləhət görülür. Qeyd olunan mahnıların hər biri IV sinif şagirdlərinin yaş xüsusiyyətlərinə, musiqi qavrama səviyyələrinə uyğun gəlir,V sinifdə hərbi vətənpərvərlik tərbiyəsilə əlaqədar Q.Qarayevin şair Z.Cabbarzadənin sözlərinə bəstələdiyi "Sülh haqqında

məktəblilər mahnısı"nı, F.Əmirovun şair T.Elçinin sözlərinə bəstələdiyi "Bip-bipin nəğməsi", Ş.Axundovanın şair A.Şaiqin sözlərinə yazdığı "Biz qalibik", E.Mansurovun şair N.Hacızadənin sözlərinə yazdığı "Ulu torpaq" mahnılarından istifadə etmək məqsədə uyğun ola bilər.

VI sinifdə hərbi vətənpərvərlik mövzusunda mahnı oxumaq mərhələsi üçün F.Əmirovun şair T.Elçinin sözlərinə "Bip-bipin nəğməsi", R.Şəfəqin V.Mirzənin sözlərinə "Müstəqillik bayramı", O.Zülfüqarovun şair R.Əliyevin sözlərinə "Azərbaycan əsgəri", E.Mİrzəbəylinin sözlərinə "Heyratı" Azərbaycan zərbi-muğamı, Ü.Hacıbəylinin S.Rüstəmin sözlərinə "Yaxşı yol", O.Rəcəbovun A.Babayevin sözlərinə "Ağlama, xalqım ağlama", O.Rəcəbovun H.Abbasın sözlərinə yazdığı "Təmiz səma altında", və s. kimi mahnılar məsləhət görülür. Musiqi dinləmə mərhələsi üçün isə "Heyratı" Azərbaycan zərbi-muğamı, "Çahargah" muğamının "Mənsuriyyə" şöbəsi, O.Rəcəbovun "Çingiz" simfoniya – rekviyem əsərindən VII hissə, Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra", "Final xoru", O.Zülfüqarovun "Şənlən, mənim xalqım" uvertürası kimi musiqi nümunələrindən istifadə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində istifadə olunması məqsədə uyğundur.

VII sinifdə hərbi vətənpərvərlik mövzusunda O.Rəcəbovun Q.Elsevərin sözlərinə "Qeyrət marşı", E.Sabitoğlunun, B.Vahabzadənin sözlərinə "Azərbaycan", O.Rəcəbovun, S.Şıxəliyevin sözlərinə "Hərbi and", R.Şəfəqin Ə.Cavadın sözlərinə "İstiqlal bayramı", Ş.Axundovanın A.Şaiqin sözlərinə "Zəfər bizimdir", N.Mirməmmədlinin Z.Xınalının sözlərinə "Əsgər qardaşlar" kimi mahnıları oxumaq üçün məsləhət görülür. Musiqi dinlənilmək üçün Ü.Hacıbəylinin "Koroğlu" operasından "Koroğlunun aşıq mahnısı"nı, "Cəngi"ni, "Uvertüra"sını, O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemindən VIII hissəni və s. kimi musiqi nümunələri məsləhət görülür.

VIII sinifdə hərbi vətənpərvərlik hissini şagirdlərə aşılamaq üçün Azərbaycan bəstəkarlarının Böyük Vətən müharibəsinə həsr olunmuş əsərləri ilə bərabər müasir dövrdə yaranmış və 1990-cı ilin 20 yanvar hadisələrinə, Xocalı qırğınına, I Qarabağ müharibəsinə, Milli Qəhrəmanlarımıza həsr olunmuş mahnılardan, eyni zamanda digər janrlı musiqi əsərlərindən istifadə etmək mümkündür.

Araşdırma nıəticələrindən çıxış edərək iddiaçı bir daha sübut edir ki, müxtəlif tərbiyəvi əhəmiyyətli musiqi nümunələri ilə bərabər, eyni zamanda hərbi vətənpərvərlik mövzusunda olan musiqi nümunələrini də oxuyanda, yaxud dinləyəndə müəllim şagirdlərə bu əsərlər haqqında maraqlı, faktlara əsaslanan məlumatlar verərsə, onlarda şüurlu münasibət bacarığı, sərbəst fikir söyləmək qabiliyyəti yaradarsa, onda musiqi nümunələri

asan qavranılar. Eyni zamanda şagirdlər gələcəkdə özlərini qəhrəmanlar kimi görmək istəyirlər, musiqi dərsləri ilə bərabər digər fənlərə də daha ciddi münasibət göstərməyə çalışırlar. Onlarda belə fikir formalaşır ki, vətəni qorumaq üçün təkcə güclü, sağlam olmaq kifayət etmir, bu keyfiyyətlərlə bərabər elmin sirlərinə yiyələnmək, texnikadan baş çıxarmaq, bir sözlə hər tərəfli savadlı olmaq – bilik, bacarıq və vərdişlərə yiyələnmək lazımdır.

**Mövzu ilə əlaqədar apardığı tədqiqat aşağıda göstərilən nəticə və təklifləri irəli sürmüşdür:**

1. Müasir dövrdə dünyanın müxtəlif məkanlarında, o cümlədən Azərbaycanda qaynar ocaqların olması, orta ümumtəhsil məktəblərimizdə də hərbi vətənpərvərlik tərbiyəsi üzrə geniş mənada və məqsədyönlü təlim işinin aparılması günün ən vacib, həm də tam şəkildə həll olunmamış bir problem olaraq qalmaqdadır.

2. Bu gün pedaqoji, fəlsəfi, psixoloji elmlər qarşısında gənclərin Vətəni qorumaq kimi probleminin elmi-nəzəri və praktik əsaslarının yaradılması da hələ ki, tam şəkildə öz həllini gözləyir və bu problemin həllində orta ümumtəhsil məktəblərində tədris olunan fənlərdən istifadə etməyin böyük əhəmiyyəti vardır.

3. Orta ümumtəhsil məktəblərimizdə Azərbaycan musiqi nümunələrindən istifadə etməklə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsini məqsədyönlü və səmərəli təşkilinin geniş imkanları vardır.

4. Azərbaycan bəstəkar və xalq musiqi yaradıcılığında hərbi vətənpərvərlik mövzusunda kifayət qədər müxtəlif janrlarda əsərlər mövcud olsa da, onlardan “Musiqi” fənninin tədrisində kifayət qədər istifadə olunmur.

5. Dərs prosesində hərbi vətənpərvərlik mövzusunda musiqi əsərləri mahnı şəklində öyrədilərsə, yaxud dinlənilərsə müəllim həmin musiqi nümunələrində əks olunmuş ideya haqqında ətraflı şəkildə məlumat verilərsə şagirdlər həmin əsərləri şüurlu və asan qavrayır ki, bu da onların hərbi vətənpərvərlik tərbiyəsinə öz təsirini göstərə bilər.

6. Musiqi fənninin tədrisi prosesində müəllimin hərbi vətənpərvərlik mövsuzunda olan musiqi nümunələri haqqında faktlara əsasən maraqlı söhbətləri, mövzuya uyğun əyani vasitələrdən, kinofilmlərdən, audio və video vasitələrindən istifadə etməsi həmin musiqi əsərlərinin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə öz müsbət təsirini göstərə bilər.

7. Musiqi müəllimi hərbi vətənpərvərlik mövzularına uyğun “Şəhidlər xiyabanı”na, hərbi muzeylərə ekskursiya, qəhrəmanlarla əlaqədar bədii və sənədli filmlərə baxış təşkil etməklə şagirdlərin dərs prosesində öyrənəcəyi, yaxud dinləyəcəyi musiqi nümunələrinə olan marağı artıra bilər. Bu isə

qeyd olunan musiqi nümunələrinin daha asan və tez qavranılmasına öz təsirini göstərə bilər.

8. Hərbi vətənpərvərlik mövzusunda Azərbaycan musiqi nümunələrinin dərs, yaxud dərsdən kənar musiqi məşğələlərində o zaman öz müsbət nəticəsini göstərə bilər ki, bu iş sistemli, müntəzəm müəyyən plana uyğun, həm də şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alaraq həyata keçirilsin.

9. Orta ümumtəhsil məktəblərimizdə "Məktəblilərin musiqi klubu" yaratmaqla və hər ay bu klubun məşğələlərində Böyük Vətən müharibəsi və Qarabağ müharibəsi iştirakçıları ilə görüşlərin keçirilməsi orada məktəb xorunun, yaxud istedadlı şagirdlərin solo mahnı oxumalarının təşkili, ümumilikdə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə böyük təsir göstərə bilər.

10. Ali və orta ixtisas pedaqoji məktəblərin müsiqi müəllimlərinin hazırlığında hərbi vətənpərvərlik tərbiyəsi sahəsinə kifayət qədər diqqət yetirilmir.Belə ki,ilk növbədə müəllimlərin özlərinə hərbi vətənpərvərlik hissləri aşılanmalıdır.

**Təkliflər:**

1. Musiqi dərslərinin daha effektli olması üçün Respublika Təhsil Nazirliyi xətti ilə "Musiqi" dərsliklərində olan musiqi materialı "Fono müntəxəbat" şəklində hazırlanaraq məktəblərə göndərilməlidir.

2. Məktəblərdə Böyük Vətən müharibəsində iştirak etmiş məşhur musiqiçilərimiz, bəstəkarlarımız haqqında guşənin yaradılması məqsədə uyğun hesab oluna bilər.

3. "Musiqi" dərsliklərində hərbi vətənpərvərlik mövzusunda musiqi nümunələrin sayının artırılması da məqsədə uyğundur.

4. Ayda bir dəfə hərbi vətənpərvərlik mövzusuna həsr olunmuş M.F.Axundov adına Opera və Balet Teatrının tamaşalarında, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının konsertlərində iştirak etməyi təşkil etmək lazımdır.

5. Azərbaycanda fəaliyyət göstərən telekanallarda müntəzəm olaraq hərbi vətənpərvərlik mövzusunda konsertlərin təşkili lazımdır. Bu konsertlərdə həm uşaq xorları, həm də tanınmış ifaçıların iştirakı məsləhət görülür.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. "Professional musiqidə qəhrəmanlıq mövzuda olan əsərlərin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə təsiri". / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı.Bakı-2012,s.

2. “Hərbi vətənpərvərliyə həsr olunmuş Azərbaycan bəstəkarlarının yeni mahnılarının öyrədilməsinin metodikası”. / Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu.ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans.Bakı-2012,s.88-89.

3. “Azərbaycan ümumtəhsil məktəblərində şagirdlərin musiqi tərbiyəsində xalq musiqisinin əhəmiyyəti”./ Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problemləri.ADMİU-nun 90 illik yubileyinə həsr olunmuş XII Beynəlxalq elmi-praktiki konfransın materialları.Bakı-2013,s.55-57.

4. “Hərbi vətənpərvərlik tərbiyəsinin müasir şəraitdə öyrənilməsinin əhəmiyyəti”. / Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problemləri. ADMİU XIII Beynəlxalq elmi-praktiki konfransın materialları.Bakı-2014,s.42-44.

5. “Патриотическое воспитание младших школьников в процессе социально-образовательной деятельности”./. Совершенствование общего и профессионального образования инвалидов в процессе их реабилитации.Материалы международной научно-практической конференции.Санкт-Петербург 2014,с.258-260.

6. “Musiqi vasitəsilə məktəblilərin hərbi vətənpərvərlik mövzusu”./ Musiqi təlimi və musiqi tərbiyəsi problemlərinə həsr olunmuş elmi konfransın materialları.Bakı-1998,s.26-27,

7. “Professional musiqidə qəhrəmanlıq mövzuda olan əsərlərin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə təsiri”./Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı.Bakı-2012,

11. “Hərbi vətənpərvərliyə həsr olunmuş Azərbaycan bəstəkarlarının yeni mahnılarının öyrədilməsinin metodikası”. / Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu. ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans. Bakı-2012, s.88-89,

12. “Azərbaycan ümumtəhsil məktəblərində şagirdlərin musiqi tərbiyəsində xalq musiqisinin əhəmiyyəti”. / Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problemləri. ADMİU-nun 90 illik yubileyinə həsr olunmuş XII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı-2013,s.55-57,

13. “ II siniflərin “Musiqi” fənninin tədrisində hərbi vətənpərvərlik mövusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yolları”.// http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=1710 Musiqi Dünyası:issue 3_2012,

14. “Hərbi vətənpərvərlik tərbiyəsinin müasir şəraitdə öyrənilməsini əhəmiyyəti”. Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problem-

ləri./ ADMİU XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı-2014,s.42-44,

15. I siniflərin “Musiqi” fənninin tədrisində hərbi vətənpərvərlik mövzusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yolları”.// http://www.harmony.musigi-dunya.az/RUS/archclouse.asp?iss=268prt=4 №14/ 2015.

16. V-VI siniflərin “Musiqi” fənninin tədrisində hərbi vətənpərvərlik mövusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yolları”.// ADPU-nun xəbərləri”jurnalı 2015,

18. «Использование Азербайджанской музыки в военно-патриотическом воспитании учащихся начальных классов». // «Вектор науки Тольяттинского государственного университета»,İSSN 2221-5662, 2015 №1(20), стр.77-81.

19. “Hərbi vətənpərvərlik tərbiyəsi probleminin” Musiqi” proqram-dərsliklərdə və elmi-metodiki ədəbiyyatda qoyuluşu.” / ADMİU-Türksoylu xalqların musiqi mədəniy.tədqiqi problemləri.XV Beynəlxalq elmi-praktik konfransın materialları,2016,02 may, s.181-184.

20.”III-IV siniflərin “Musiqi”fənninin tədrisində hərbi vətənpərvərlik mövzusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yolları”.//”Musiqi dünyası”jurnalı.

21.”Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik tərbiyə baxımından əsərlərinin məzmunu və xüsusiyyətləri”. // Musiqi elmi,mədəniyyəti və təhsilinin aktual problemləri.ADPU-№1,Bakı,2016,s.45-47.

22. “VIII-VIII siniflərin “Musiqi” fənninin tədrisində hərbi vətənpərvərlik mövusunda olan mahnıların öyrədilməsi prosesində istifadənin imkan və yolları”. // APTPİ-nin “Elmi əsərləri” jurnalı, cild 83, №2, Bakı-2016, s.115-119.

**Нармин Мубариз гызы Камилова**

**Возможности и способы работы военно-патриотического воспитания школьников на музыкальных занятиях (на основах материалов общеобразовательных школ)**

**РЕЗЮМЕ**

Диссертасия состоит из введения, двух глав, шести подзаголовков, заключения и списка использованной литературы. Во **введении** отражаются такие вопросы как актуальность темы,объект исследования,его методологическая основа, методы, излагаются основные положения выносимые на защиту, даются сведения об апробации.

**Первая глава** диссертации называется «**Педагогические задачи военно-патриотического воспитания школьников посредством музыки»** и состоит из трёх разделов: **1.1.** называется—«**Сущность военно-патриотического воспитания в обшеобразовательных школах Азербайджанской Республики».** В данном разделе анализируются сущность, цель и задачи военно-патриотического воспитания в общеобразовательных школах. **1.2.** называется – «**Рассмотрение проблемы в программах и учебниках по музыки в научно-методической литературе».** В данном разделе анализируются программы и учебники по музыки изданные в период с 20-х годов прошлого века по современный период 2013 года. В связи с постановкой данной проблемы было исследовано огромное количество научно-методической литературы, монографий, диссертационных работ и нучных статей. **1.3. «Из истории музыкальных произведений в Азербайджане созданных на военно-патриотическую тему в период XX-XI веков.** В данном разделе анализируются народные песни,песни композиторов,классические и симфонические произведения на военно-патриотическую тему.

**Вторая глава** диссертации называется **«Пути использования произведений Азербайджанских композиторов на военно-патриотическую тему на уроках музыки»**, эксперимент и состоит из двух разделов: **2.1.** называется - «**Содержание и характеристика произведений Азербайджанских композиторов с точки зрения военно-патриотического воспитания». 2.2.** называется "**Привитие военно-патриотических качеств учащихся на уроках музыки путем использования Азербайджанской музыки. (Эксперимент).** Здесь систематизируются военно-патриотическая музыка предназначенные усвоению учащимися I-VIII классов,и в то же время показываются пути их преподавания современными методами.

В **заключение** даётся десять пунктов, включающее в себе **ряд предложений** из пяти пунктов, приложений и фотографий.

**Narmin Mubariz Kamilova**

**Opportunities and the modes of work on military patriotic education of pupils at music lessons (on bases of materials of general education schools)**

**SUMMARY**

The thesis consists of introduction, two chapters, six subtitles, the conclusion and the list of the used literature. In **introduction** such questions as relevance of a subject, a research object, its methodological basis, methods are reflected, the basic provisions submitted for defend are stated, the information on approbation is supplied.

**Chapter 1** of the thesis is called **"Pedagogical issues of military patriotic education of pupils by means of music"** and consists of four subtitles: **1.1.** is called—« **Essence of military patriotic education at general education schools of the Republic of Azerbaijan».** In this subtitle the essence, purpose and tasks of military patriotic education at general education schools are analyzed. **1.2.** is called – «**Consideration of a problem in programs and textbooks on music in scientific and methodical literature ».** In this subtitle programs and textbooks on music printed during the period from the 20th of the last century, the modern period to 2013 are analyzed. Due to this problem the huge number of scientific and methodical literature, dissertation works and monographs and scientific articles has been investigated. **1.3. «From history musical compositions in Azerbaijan created on a military patriotic subject in the period of the XX-XI centuries.** In this subtitle the national songs, songs of composers, classical and symphonic works on a military patriotic subject in the period of the XX-XI centuries are analyzed.

**Chapter 2** of the thesis is called **"Ways of use of works of the Azerbaijani composers on a military patriotic subject at music lessons",** the experiment also consists of two subtitles: **2.1.** is called—«**The contents and the characteristic of works of the Azerbaijani composers from the point of view of military patriotic education». 2.2** is called **"Instilling of military patriotic qualities of pupils at music lessons by use of the Azerbaijani music". (Experiment).** Here are military patriotic music intended to appropriate by pupils of the I-VIII classes is systematized, and at the same time ways of their teaching by modern methods are shown.

At the end of the thesis the **conclusion** consisting of ten points, the **offer** consisting of five points, the annex and the photo are given.

Çapa imzalanıb: 27.03.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**НАРМИН МУБАРИЗ гызы КАМИЛОВА**

# ВОЗМОЖНОСТИ И СПОСОБЫ РАБОТЫ ВОЕННО-ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ ШКОЛЬНИКОВ НА МУЗЫКАЛЬНЫХ ЗАНЯТИЯХ
**(на основах материалов общеобразовательных школ)**

5801.01 – Теория и методика обучения и воспитания
(методика преподавания музыки)

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени
доктора философии по педагогическим наукам

**Баку – 2017**